# MÜASİR TƏLİM TEXNOLOGİYASINDAN İSTİFADƏ ETMƏKLƏ OKSİGEN MÖVZUSUNUN TƏDRİSİ

**A.C. Mahmudova, Ş.R. Əliyeva, G.M. Musayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Mövzu: Oksigen alınması, fiziki və kimyəvi xassələri.

Standart: 1.1.1; 3.1.1; 3.2.1.

Məqsəd: Oksigenin alınması üsullarını, fiziki və kimyəvi xassələrini şərh edir, ona aid sadə reaksiya tənliklərini yazır.

1. Oksigenin təbiətdə yayılması, dövri cədvəldə yerini şərh edir.
2. Oksigenin laboratoriyada və sənayedə alınması üsullarını şərh edir.
3. Oksigenin alınması və kimyəvi xassələrinə aid təcrübələr nümayiş etdirir.

Təlim üsulu: "BİBÖ" cədvəli, beyin həmləsi, problemli şərh, tədqiqatçılıq, müstəqil iş.

Təlim forması: kollektivlə iş, kiçik qruplarla iş.

Resurslar: Dərslik, $KClO_3$, $H_2O_2$, $MnO_2$, $NaNO_3$, kibrit, İKT vasitələri.

İnteqrasiya: Biologiya, coğrafiya, riyaziyyat.

Dərsin gedişi:

Motivasiya: Ekranda gördüklərinizə aid nə deyə bilərsiniz? Şagirdlər ekranda çəmənlik, meşələr, günəş işığı görür və külək səsi eşidirlər.

Dərsin mövzusunu şagirdlərdən aldıqdan sonra müəllim motivasiyanı "BİBÖ" cədvəli ilə davam etdirir.

Müəllim oksigen haqqında nə bilirsiniz? sualını şagirdlərə verir. Sualına cavab üçün qeyd edir ki, uşaqlar siz oksigen haqqında həyat bilgisindən, coğrafiyadan ətraflı məlumat almısınız. Onda bildiklərinizi "bildiklərim" xanəsində yazın. Sonrakı xanədə daha nələri bilmək istəyirsiniz, onu göstərin. Bunlar mövzunun məqsədində göstərilmişdir.

| Bildiklərim | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| 1) | 1) | 1) |
| 2) | 2) | 2) |
| 3) | 3) | 3) |

Tədqiqatın aparılması:

Şagirdlər 4 qrupa bölünür. Mövzuya aid tapşırıqlardan ibarət işçi vərəqləri qruplara paylanır, tapşırıqları yerinə yetirmək üçün onlara dərslikdən istifadə etmək tapşırılır, 12-15 dəqiqə vaxt verilir.

I qrup. 1) Oksigenin dövri cədvəldə yerini izah edin, elektron quruluşunu yazın.

2) Oksigenin təbiətdə yayılmasını izah edin.

3) 2 mol oksigen qazının kütləsini (qramla) hesablayın.

II qrup. 1) Oksigenin fiziki xassələrini izah edin.

2) Bertolle duzunun $MnO_2$ katalizatoru iştirakı ilə parçalanma reaksiyasının tənliyini yazın.

3) Hidrogen-peroksidin $MnO_2$ iştirakı ilə parçalanma reaksiyasının tənliyini yazın.

III qrup. 1) Suyun elektrolizi ilə oksigenin alınması reaksiyasının tənliyini yazın.

2) Oksigenin metallarla reaksiya tənliyini yazın.

3) Oksigenin hansı toplanma üsulları olduğunu izah edin.

IV qrup. 1) Kalium permanqanatın parçalanma reaksiyasının tənliyini yazın.

2) 3 mol suda neçə qram oksigen olduğunu hesablayın.

3) Oksigenin tətbiqinə aid sxem tərtib edin.

Məlumatın mübadiləsi və müzakirəsi. Hər bir qrupdan bir şagird nəticələrini təqdim edir. Hər bir qrup üzvləri digər qruplara sual verir və əlavələr edirlər.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Qrupların işləri ümumiləşdirilir. Sonra müəllim sinifə ümumi sual verir. Uşaqlar siz nəyi öyrəndiniz? Şagirdlər öyrəndiklərini "BİBÖ" cədvəlinin "öyrəndim" xanasında yazırlar.

Tətbiqetmə: 1) Oksigenin $H_2$, C, S, Fe ilə reaksiya tənliklərini yazın və əmsallaşdırın.

2) Oksigenin ZnS, $CH_4$ ilə reaksiya tənliklərini yazın və əmsallaşdırın.

3) Oksigeni hansı üsullarla sınaq şüşəsinə toplamaq olar.

Qiymətləndirmə.

| Qruplar / Meyarlar | I | II | III | IV |
|---|---|---|---|---|
| Tədqiqatçılıq | | | | |
| Tətbiqetmə | | | | |
| Əməkdaşlıq | | | | |

## İstifadə edilmiş ədəbiyyat:

1. M.M.Abbasov, V.M.Abbasov və başqalar. VII siniflər üçün Kimya dərsliyi, Bakı, Aspoliqraf, 2018, 92 səh.
2. M.M.Abbasov, G.Cəlilova və başqaları. VII sinif kimya üzrə müəllimlər üçün dərs vəsaiti. Bakı, Aspoliqraf, 84 səh.
3. M.M.Abbasov, Abituriyentlər üçün kimyadan vəsait. Abituriyent jurnalının xüsusi buraxılışı. I hissə, 460 səh.

*А.Дж. Махмудова, Ш.Р. Алиева, Г.М. Мусаева*

**Преподование темы «Кислород» с использованием современных технологий обучения**

**РЕЗЮМЕ**

В статье говорится о том как новыми методами обучения преподнести информацию о кислороде, ее получении и свойствах.

*A.J. Mahmudova, Sh.R. Aliyeva, G.M. Musayeva*

**Teaching the topic “Oxygen” using modern teaching technologies**

**SUMMARY**

The article is about how to present information on oxygen, its obtaining and properties by new teaching methods.

**Açar sözlər:** oksigen, fiziki xassələri, təbiətdə dövranı, kimyəvi xassələri, oksidlər.

**Ключевые слова:** кислород, физические свойства, круговорот в природе, химические свойства, оксиды.

**Key words:** oxygen, physical properties, circulation in nature, chemical properties, oxides.